


*Əminəm ki, bu sammit Xəzəryanı dövlətlərin qarşısında duran mühüm ümumi məsələlərin həllinə yönəlmiş səylərin birləşdirilməsinə şərait yaradacaq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***Aşqabad, 29 iyun 2022-ci il***

# "Xəzər beşliyi"nin Aşqabad Sammiti region tarixinə dəyərli səhifə kimi yazıldı

***Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən VI Zirvə toplantısı təkcə hövzə ölkələrində deyil, eləcə də, ümumilikdə, Avrasiya məkanında böyük məmnunluqla qarşılandı. Çünki bu gün Transxəzər nəqliyyat dəhlizi materikin bütün ölkələrinin maraq dairəsindədir. Belə ki, Şanxaydan Londona qədər uzanan Yeni İpək Yolu məhz Xəzərdən keçərək Avropaya gedir. Yəni Xəzər hövzəsində sülhün, sabitliyin, əmin-amanlığın bərqərar olunması Avropa və Asiyada hamıya sərf edir.***

Ancaq bu zaman başqa bir problem – insanlardan və dövlətlərdən asılı olmayan təbii proses ortaya çıxır. Dünya alimləri sübut edirlər ki, Xəzər dənizindəki çəkilmə prosesi (suyun səviyyəsinin aşağı düşməsi) hələ uzun müddət davam edəcək və bunun nəticəsində ağır yük gəmilərinin hərəkətinə çətinlik yaranacaq. Yəni bu təbii proses təkcə Xəzəryanı ölkələri deyil, ümumilikdə, hamını narahat edən məsələyə çevrilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Aşqabad Sammitində həmin məsələni xüsusilə qabartdı və problemin aradan qaldırılması istiqamətində həyata keçiriləcək layihələrdən söz açdı. Dövlət başçımız qeyd etdi ki, biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik: "Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər".

Yeri gəlmişkən, Azərbaycan təkcə bu məsələdə deyil, həm də, Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Dövlət başçımız xatırlatdı ki, Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir: "Bu ilin sonunda Bakıda "Xəzər dənizinin dənizətrafı mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub".

Ümumiyyətlə, Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir. Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Çoxillik iş nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən edib. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq.

Ulu öndər Heydər Əliyev xatırladırdı ki, hansısa sahilyanı ölkə Xəzərin heç bir problemini təkbaşına həll etmək iqtidarında deyil. Bunun üçün sahilyanı ölkələrin hamısının elmi nəticələrə əsaslanan səyləri birləşdirilməli, istənilən məsələni sahilyanı ölkələr birlikdə həll etməlidirlər. Prezident İlham Əliyevin dediyi kimi, bu məqsədlə həyata keçirilən tədbirlər nəticəsində Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Yəni təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib.

Təbii ki, sahilyanı ölkələrin qarşılıqlı fəaliyyətinin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Bu isə XXI əsrin ikinci onilliyində yaranan beynəlxalq proseslər fonunda olduqca önəmli məsələdir. İndi zaman dövlətlərdən və dövlət başçılarından daha çevik reaksiyalar, qətiyyətli addımlar və kəsərli qərarlar qəbul etmək kimi keyfiyyətləri tələb edir. Sevindirici haldır ki, Azərbaycanın bu istiqamətdəki fəaliyyəti dövlətimizin və xalqımızın maraqlarını tamamilə təmin edir.

Elə Xəzər dənizi ilə bağlı atılan bütün addımlar da həm bugünümüzün, həm də sabahın maraqlarını təmin edir və edəcək. Dövlət başçımızın dediyi kimi, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır və Azərbaycan bu sırada öndə gedən ölkələrdəndir.

Mütəxəssislər qeyd edirlər ki, "Xəzər beşliyi"nin Aşqabad Sammiti Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri olduğunu növbəti dəfə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlət başçımız sammitin tribunasından vurğuladı ki, ölkəmiz Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır: "Biz Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsinə səy göstəririk. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaq".

Aşqabad Sammitinin daha bir əhəmiyyəti isə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin zirvə görüşünün tribunasından səsləndirdiyi "Qazaxıstanın ət və süd məhsullarının ixracını artırmaq potensialı var" fikri idi. Belə ki, qardaş ölkənin prezidenti qarşılıqlı ticarəti artırmaq üçün Xəzərdə qida qovşağı yaratmağı təklif etdi: "Dövlətlərimiz arasında ticarət əlaqələrini gücləndirmək üçün müasir logistika infrastrukturunu ardıcıl şəkildə inkişaf etdirmək lazımdır. Ona görə də biz minimal xərclə qarşılıqlı ticarəti artıracaq Xəzər ərzaq mərkəzini yaratmağı təklif edirik".

Tək bu deyil, Aşqabad sammitində sahilyanı ölkələrin rəhbərləri Xəzərin sülh, sabitlik, əmin-amanlıq və qarşılıqlı maraqları təmin edən əməkdaşlıq dənizinə çevrilməsi üçün təklif, təşəbbüs və rəylərini dilə gətirdilər. Məhz ona görə də qətiyyətlə deyə bilərik ki, "Xəzər beşliyi"nin Aşqabad Sammiti region tarixinə dəyərli səhifə kimi yazıldı.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***